QANUN № 08 (382), 2026, s.42-57

Mürsəlov Oruc Qinyaz oğlu,
Bakı Dövlət Universitetinin Beynəlxalq ümumi hüquq kafedrasının doktorantı
E-mail: orucmurselov1@gmail.com

UOT 341.4
DOI: https://doi.org/10.30546/2218-9130.008.382.2026.142

BÖYÜK BRİTANİYA VƏ AMERİKA BİRLƏŞMİŞ ŞTATLARINDA KORRUPSİYA İLƏ MÜBARİZƏNİN HÜQUQİ ƏSASLARI VƏ MEXANİZMLƏRİ

Açar sözlər: *korrupsiya, Böyük Britaniyanın 2010-cu il rüşvətxorluq haqqında Aktı, ABŞ -ın 1977-ci il korrupsiyalaşmış xarici praktika haqqında Qanunu, xarici vəzifəli şəxs, şübhəli maliyyə əməliyyatları, Azərbaycan Respublikasının antikorrupsiya praktikası.*

Ключевые слова: *коррупция, Закон Великобритании о взяточничестве 2010 года, Закон США о борьбе с коррупцией за рубежом 1977 года, иностранный чиновник, подоз-рительные финансовые операции, антикоррупционная практика Азербайджанской Рес-публики.*

Keywords: *corruption, UK Bribery Act 2010, US Foreign Corrupt Practices Act 1977, fo-reign official, suspicious financial transactions, anti-corruption practice of the Republic of Azer-baijan.*

Giriş

Korrupsiya özünün doğurduğu neqativ nəticələrinin həcminə və xarakterinə görə bu gün kriminal qloballaşmanın ən təhlükəli təzahürlərindən biri hesab olunur. O, dövlətlərin iqtisadi, siyasi və sosial sabitliyinə və maraqlarına, demokratik təsisatlara, qanunun aliliyinə, insan hü-quqlarına ciddi təhlükə yaradır. Beynəlxalq xarakterli cinayətin təhlükəli növlərindən biri ol-maqla, korrupsiya nəinki inkişaf etməkdə olan, həmçinin sənaye və maliyyə baxımından inkişaf etmiş ölkələrə də böyük zərbələr vurur, biznes və idarəetmə mühitini korlayır, insanlar arasında ciddi sosial fərqliliyə zəmin yaradır. Tədqiqatşıların dili ilə desək, bu gün korrupsiya qloballaş-ma şəraitində sürətlə böyüyərək və genişlənərək müasir sosial nizamı sarsıtmağa, onu deqradasi-yaya uğratmağa meylli olan bir sosial fenomenə çevrilib [5,s.10]. Odur ki, bu gün korrupsiya müasir qloballaşan dünyanın ciddi problemlərindən biri olmaqla istər hüquq, istər iqtisadiyyat, istərsə də siyasət elmləri baxımından elmi-nəzəri tədqiqatların xüsusi diqqət mərkəzinə çevrilib.

Məqalənin aktuallığı bir neçə amillə şərtləşir. *Birincisi,* korrupsiya kriminal qloballaş-manın ən təhlükəli təzahür formalarından biri olmaqla, cəmiyyətin, dövlətin, bütövlükdə isə döv-lətlərarası sistemin həyati əhəmiyyətli dəyərlərinə, əsaslarına qəsd edən beynəlxalq xarakterli ci-nayət və yaxud transmilli cinayətdir və bu da onunla kompleks mübarizə tədbirlərinin yaradıl-masını və təkmilləşdirilməsini tələb edir. *İkincisi,* cinayətkarlıqla mübarizə sahəsində formalaş-mış təcrübə sübut edir ki, korrupsiyaya qarşı səmərəli mübarizənin ən optiumal təsir mexanizm-lərindən biri - dövlətdaxili və beynəlxalq qanunvericiliyin qarşılıqlı şəkildə

uzlaşdırılması və tət-biqidir, bir halda ki, korrupsiya və onunla birbaşa əlaqəsi olan cinayətlər sərhədləri aşaraq trans-milli əhəmiyyət kəsb etməyə balamış, iki və ya daha çox dövlətin vətəndaşlarının iştirak etdiyi transmilli mütəşəkkil cinayətkarlıq səviyyəsinə gəlib çıxmışdır. *Üçüncüsü,* konkret bir dövlət da-xilində korrupsiya ilə mübarizənin hüquqi və təşkilati mexanizmləri nə qədər təkmil və effektiv görünsə də, lakin bu hüquq pozuntusunun sərhədləri aşaraq beynəlxalq miqyas alması, onunla mübarizəni beynəlxalq hüquqi əməkdaşlığın əsas prioritetlərindən birinə çevirmişdir. Tədqiqatçıların düzgün olaraq vurğuladığı kimi, korrupsiyanın transmilli mütəşəkkil cinayətkarlıqla, onun əlverişli mövcudluq şəraitini təmin edən və həyat qabiliyyətini dəfələrlə artıran sıx əlaqəsi bey-nəlxalq təhlükəsizlik üçün müstəsna təhlükə törədir [2,s.8]. Yəni, korrupsiyaya qarşı mübarizədə konkret bir dövlətin müəyyən etdiyi hüquqi və təşkilati xarakterli mexanizmlər nə qədər təkmil olsa da, sözügedən cinayətin transmilliləşmə tendensiyası beynəlxalq əməkdaşlığı nəzərə alma-dan səmərəli ola bilməz. Odur ki, bu cinayətlə mübarizə iki hüquq sisteminin, yəni dövlətdaxili hüququn və beynəlxalq hüququn qarşılıqlı təsirini və tətbiqini tələb edir. *Dördüncüsü,* mövzunun aktuallığını şərtləndirən ən əsas amillərdən biri ondan ibarətdir ki, indinin özünə kimi nəin ki, milli və beynəlxalq qanunvericilikdə, o cümlədən elmi tədqiqatlarda korrupsiyanın anlayışına və onun mahiyyətinə dair bütün dövlətlər tərəfindən qəbul edilən universal müəyyənlik yoxdur və bizim də qeyd olunan mövzunun araşdırılmasında əsas hədəfimiz dövlətlərin praktikası ilə tanış olmaq və bu əsasda qanunvericiliyin təkmilləşməsinə öz təklif və tövsiyələrimizi verməkdir.

Tədqiqatın məqsədi. Korrupsiya ilə mübarizə sahəsində hüquqi əsasların və nəzarət me-xanizmlərinin yaranması və inkişafı qədim tarixi köklərə söykənir. Xüsusilə, bu aspektdə həm iqtisadi, həm hüquqi, həm siyasi baxımdan inkişaf etmiş dövlətlərin korrupsiya ilə mübarizə praktikasının öyrənilməsi və araşdırılması olduqca aktualdır. Məhz bu məqsəd nəzərə alınmaqla, məqalədə Böyük Britaniya və Amerika Birləşmiş Ştatları kimi inkişaf etmiş ölkələrin antikor-rupsiya qanunvericiliyi və nəzarət mexanizmlərinin kompleks təhlili və araşdırılması aparılmış, nəticədə Azərbaycan Respublikasının korrupsiya praktikasının təkmilləşməsinə töhfə verə bilə-cək təklif verilmişdir. Məqalədə tarixi, müqayisəli-hüquqi, ümumelmi və xüsusi metodlar əldə rəhbər tutularaq təklif edilir ki, Azərbaycan zəngin təbii resurslara (xüsusən neft və qaz) malik bir ölkədir və həmin fəaliyyət prosesində ölkəni təmsil edən vəzifəli şəxslərin, şirkət rəhbərləri-nin və bu imkana malik olan digər məmurların xarici vəzifəli şəxsləri, xarici şirkət rəhbərləri ara-sında rüşvət və korrupsiya kimi qanunsuz sövdələşmələri qadağan edən xüsusi qanunun qəbul edilməsinə, o cümlədən qüvvədə olan Cinayət Məcəlləsinə konkret cinayət tərkibinin daxil edil-məsinə zərurət vardır. Belə bir implementasiya tədbirinin zəruriliyi ondan ibarətdir ki, Azər-baycan şirkətləri xarici bazarlarda iştirak edir və istər-istəməz onlar xarici şirkətlərlə, xarici və-zifəli şəxslərlə müəyyən iqtisadi və kommersiya xarakterli fəaliyyətə daxil olurlar və belə bir fəaliyyətdə təbii ki, cinayətkar sövdələşmələr istisna deyil. Belə qanunsuz sövdələşmələr bu gün Böyük Britaniya və ABŞ kimi dünya iqtisadi arenasında hüquqi və siyasi baxımdan üstünlüyə malik dövlətlərin qanunları ilə qadağan olunan əməldir. Odur ki, bu gün Azərbaycan şirkətləri xarici bazarlarda, məsələn, ABŞ-ın 1977-ci il Korrupsiyalaşmış xarici praktika haqqında Qanu-nunun ərazidənkənarlıq yurisdiksiyasından sığortalanmayıblar.

Beynəlxalq hüquq çərçivəsində (çoxtərəfli və regional əsasda) korrupsiya cinayəti ilə mübarizənin hüquqi və təşkilati əsaslarının formalaşmasına qədər, artıq milli qanunvericilik səviyyəsində onunla mübarizənin hüquqi mexanizmləri mövcud idi. Təbii ki, milli hüquq çərçivəsində formalaşmış praktikaya əsaslanaraq beynəlxalq əməkdaşlıq müstəvisində hüquqi mübarizə me-

xanizmlərinin yaradılması, bu sahədə dövlətlərin milli qanunvericilik təcrübələrinin ümumiləşdirilməsinin süzgəcindən keçir desək, təbii ki, yanılmarıq. Öz növbəsində, belə bir təcrübənin öyrənilməsi həm beynəlxalq hüquqi əməkdaşlıq üçün, həm də milli qanunvericiliyin gələcəkdə təkmilləşdirilməsi üçün olduqca əhəmiyyətlidir. Bu baxımdan dünyanın bir sıra ölkələrində, xüsusilə siyasi, iqtisadi və hüquqi baxımdan inkişaf etmiş ölkələrində antikorrupsiya tədbirlərini özündə əks etdirən normativ-hüquqi bazanın mahiyyəti və məzmunu ilə bağlı məsələlərin araş-dırılmasını və tədqiq edilməsini zəruri hesab ediirik.

İlk öncədən onu da qeyd edək ki, dünyanın müxtəlif ölkələrində korrupsiyaya münasi-bətdə qanunvericilik və inzibati təsir mexanizmlərində fərqlərin mövcudluğu inkaredilməzdir, lakin belə vəziyyət, nəinki bir ölkə daxilində, həmçinin beynəlxalq səviyyədə bu cinayətlə mü-barizənin neqativ nəticələrinin minimuma endirilməsi kimi zəruri mübarizə tədbirlərinin görül-məsinə maneə yarada bilməz.

Hüquq ədəbiyyatında korrupsiya beynəlxalq xarakterli cinayət [1,s.196;3,s.177], o cümlədən, mütəşəkkil cinayətkarlıqla, transmilli cinayətkar qrup, dəstə və təşkilatlarla əlaqəsi nəzərə alınmaqla, transmilli cinayət hesab olunur [8,s159;4,s.97; 18,p.199-209]. Professor Nikos Passas qeyd edir ki, korrupsiya hər hansı ayrıca bir dövlətin, coğrafi regionlar, siyasi sistemlər və ya mədəniyyətlərin hüdudları ilə məhdudlaşan yeni fenomen deyildir. Burada yenilik ondan ibarət-dir ki, siyasi sabitliyi pozan, inkişafa təxribat yaradan, azad rəqabəti sarsıdan, qanunun aliliyini təhdid edən, etimadsızlıq yaradan, bərabərsizliyə və yoxsulluğa xidmət edən, şərin və ədalətsiz-liyin başqa mənbələrinə şərait yaradan bu bəlaya qarşı mübarizənin aparılması üçün ortaya döv-lətlərin əməkdaşlığını zəruri edən beynəlxalq səylərə cəhd edilməlidir [25,p.9].

Tədqiqatda müzakirə predmeti Böyük Britaniya və Amerika Birləşmiş Ştatlarının (ABŞ) antikorrupsiya praktikasını təşviq edən amillər nəzərə alınmaqla, bu ölkələrdə mövcud olan hü-quqi və institusional nəzarət mexanizmlərini tədqiq etməkdir. Problemin Böyük Britaniya və ABŞ kimi inkişaf etmiş dövlətlərin daxili qanunvericilik təcrübəsi əsasında elmi müstəvidə araşdırılması bir sıra mühüm *səbəblərlə* bağlıdır: *birincisi*, antikorrusiya üzrə müasir beynəlxalq təcrübə və hüquq normaları məhz ilk dəfə Avropada, ABŞ-da və bir sıra inkişaf etmiş Şərq ölkə-lərində təşəkkül tapmış və formalaşmışdır; *ikincisi,* dünyada müasir demokratiyaların, insan hü-quq və azadlıqlarının çiçəklənməsi yalnız korrupsiya və çirkli pulların yuyulması istiqamətində atılan məqsədyönlü mübarizənin nəticəsindən asılı olaraq inkişaf edir və bu da öz real təcəssümü etibarilə inkişaf etmiş ölkələrin təcrübəsinə əsaslanmaq üçün zəmin yaradır; *üçüncüsü,* hazırda qloballaşma və inteqrasiya proseslərinin daha təkmil və effektiv nəticəsinə nail olmaq üçün məhz inkişaf etmiş ölkələrdə tətbiq olunan qanunvericilik və nəzarət praktikasına müraciət edilməsi zəruridir; *dördüncüsü*, antikorrupsiya sahəsində transmilli təşkilatlarla dünya dövlətləri arasında qurulan əlaqələrin səmərəli olması və bu istiqamətdə qarşılıqlı faydalı əməkdaşlıq bu əmələ qarşı mübarizədə mühüm əhəmiyyət kəsb edəcəkdir. Qeyd olunan amilləri nəzərə alaraq, biz məsələyə antikorrupsiya tədbirlərinin, yəni istər qanunvericilik, istərsə də təşkilati-hüqiqi tədbirlərin ilk dəfə tətbiq olunduğu ölkələrin praktikasına müraciət edərək, korrupsiya ilə mübarizə üzrə nor-mativ-hüquqi sistemə müəyyən aspektlərdən yanaşmanı daha zəruri hesab edirik.

a) Böyük Britaniyada korrupsiya ilə mübarizənin hüquqi əsasları və nəzarət mexanizmləri

Böyük Britaniyada antikorrupsiya üzrə daxili qanunvericilik sisteminin təşəkkül tapması və inkişafı qədim bir tarixə söykənir. Bu dövlətdə korrupsiyanın sadə təzahür forması olan rüşvətxorluğun kriminallaşdırılması hələ “Biz in-

sanlara hüquq və ədalət mühakiməsindən kənar heç bir şey satmayacağıq…" formulasında 1297-ci il Böyük Azadlıqlar Xartiyasında (*Maqna Karta*) bəyan edilirdi [19,p.9]. Bundan əlavə, bu ölkədə XIX əsrdə qanunvericilik qaydasında qeyd olu-nan ictimai təhlükəli əmələ qarşı mübarizə tədbirləri nəzərdə tutulmuş və cəzalar müəyyən olun-muşdur. Hal-hazırda Böyük Britaniyada korrupsiya ilə mübarizə üzrə aşağıdakı aktlar mövcud-dur: 1) Dövlət orqanlarında korrupsiya ilə mübarizə haqqında 1889-cu il Aktı (Qanunu) (*Public Bodies Corrupt Practices Act 1889*); 2) Korrupsiyanın qarşısının alınması üzrə 1906-cı il və 1916-cı il Aktları (Qanunları) (*Prevention of Corruption Act 1906, 1916*); 1983-cü il xalq nüma-yəndəliyi haqqında Akt (Qanun) (*Presentation of the People Act 1983*); 2010-cu il rüşvətxorluq haqqında Akt (Qanun) (*The Bribery Act 2010*), 2017-ci il maliyyə cinayətləri ilə mübarizə haq-qında Akt (Qanun) (*Criminal Finances Act 2017*), 2023-2024-cü illərdə iqtisadi cinayətlər və korporativ şəffaflığa dair Akt (Qanun) *(Economic Crime and Corporate Transparency Act)* qeyd edilməlidir. Böyük Britaniyada korrupsiyaya qarşı mübarizə tədbirlərini özündə əks etdirən bir neçə belə aktın qəbul edilməsinin ən mühüm səbəblərindən biri bu cinayət əməlinə görə zaman-zaman baxışların dəyişməsi və məsuliyyət məsələsinə həssas münasibətlə əlaqədar olmuşdur.

Indi isə yuxarıda qeyd olunan qanunvericilik aktlarının qısa təhlilinə keçək. 30 avqust 1889-cu ildə qəbul edilən *Dövlət orqanlarında korrupsiya ilə mübarizə haqqında Akt* [22] Bir-ləşmiş Krallıqda parlament üzvlərinin, korporasiyaların, şuraların, departamentlərin, komissiya-ların və digər dövlət orqanlarının rəsmi şəxslərinin və qulluqçularının rüşvət və korrupsiya fəa-liyyətlərinin qarşısının alınması və cəzalandırılması məqsədinə xidmət etmişdir. Bu Akt dövlət orqanlarının nümayəndələrinin, rəsmi şəxslərinin və qulluqçularının aktiv və passiv rüşvət fəaliy-yətlərinə görə cinayət məsuliyyətinə cəlb olunması məsələsini özündə əks etdirir. Xüsusilə qeyd etmək lazımdır ki, bu Akt onunla əhatə olunmuş şəxslərə həmin şəxslərin özləri və ya onlarla əlbir olan istənilən digər şəxsdən hər hansı bir məsələni xahiş etməyi və ya rüşvətlə ələ almağı və ya onu əldə etməyə razılaşmağı, habelə, özləri və ya onlarla əlbir olan istənilən digər şəxs üçün hədiyyə, ssuda, haqq və ya stimul kimi hər hansı şəxsə kömək etməyi və ya mükafatı, hər hansı dövlət qurumu ilə əlaqəli olan hər hansı məsələ ilə bağlı razılaşma və ya təklifi qadağan edirdi. Qanuna müvafiq olaraq, bu əməllərə görə cinayət təqibini davam etdirmək üçün Baş Prokurorun razılığı tələb olunur. Qanunda nəzərdə tutulan cinayətlərlə əlaqədar olaraq, sübutetmə yükü cvabdehin üzərinə düşdüyündən o, pulun, hədiyyənin və ya digər xoşrəftarlıq hallarının korrup-siya elementi kimi qəbul edilmədiyini göstərməlidir.

Qanunun müəyyənliyindən göründüyü kimi, şəxs hədiyyə alaraq korrupsiya əməliyyatın-da iştirak edirsə, o da rüşvət verən kimi cəzalandırılır. Beləliklə, cəza sistemi yalnız rüşvət alanı deyil, həm də korrupsiya prosesini başladan rüşvət verəni də əhatə edirdi və potensial rüşvət alanın müqavilənin şərtlərini yerinə yetirmək niyyətində olub-olmamasının məsuliyyət üçün əhə-miyyəti yoxdur. Bu yanaşma, korrupsiya əməlləri zəncirinin ilkin mərhələdə qarşısını almaq üçün profilaktik, yerli, şəxslərarası, sosial-psixoloji yanaşmaya imkan verir [6,s.30].

Böyük Britaniyada XX əsrin ilk onilliyi ərzində korrupsiya ilə mübarizə strategiyasının daha da sürətləndirilməsi və təkmilləşdirilməsi məqsədi ilə 1906-cı ildə və 1916-cı ildə eyni-adlı iki qanun - *Korrupsiyanın qarşısının alınması haqqında Qanun* qəbul olunub. Sözügedən qanun-ların hər biri Böyük Britaniyada antikorrupsiya qanunvericiliyinin sistem elementlərinin inkişa-fına mühüm töhfələr verib. 1906-cı il Qanunu korrupsiyaya qarşı mübarizədə mühüm təsir vasi-təsi hesab olunan nəzarət qaydasını dövlət qulluğundan kənara çıxararaq özəl kommersiya müna-sibətlərinə qədər genişləndirdi, cinayət məsuliyyərini özəl sektora şamil etdi,

xüsusilə gizli mü-kafatlar və hədiyyələrin qarşılığında agentlər (işçilər) və onların rəhbərləri (işəgötürənlər) üçün cəzalar müəyyən etdi.

1916-cı il Korrupsiyanın qarşısının alınması haqqında Qanun isə korrupsiya və rüşvətin hədəfi ola biləcək "dövlət orqanı" terminin əhatə dairəsini genişləndirdi. Ora nəin ki, dövlət qurumları, o cümlədən, hər hansı yerli hakimiyyət orqanları da daxil edildi, hüquqi dövriyyəyə müqavilənin olması halında korrupsiya prezumpsiyasını daxil etdi və ən nəhayət sürgün işlərinin müddətini 3 ildən 7 ilə qədər artırdı. Beləliklə, 1906-cı və 1916-cı il Korrupsiyanın qarşısının alınması haqqında Qanunlar Böyük Britaniya cinayət məsuliyyətini özəl sektora şamil edən, dövlət qurumlarının tərifini genişləndirən və rüşvətə görə cəzaların həddini artıran əsas qanun-vericilik aktlarıdır. Onu da qeyd edək ki, 1906-cı və 1916-cı il Korrupsiyanın qarşısının alınması haqqında Qanunlar Dövlət orqanlarında korrupsiya ilə mübarizə haqqında 1889-cu il Aktı ilə bir-likdə Böyük Britaniyada antikorrupsiya siyasətinin hüquqi əsası kimi fəaliyyət göstərmiş, 2010-cu il rüşvətxorluq Aktının qüvvəyə minməsindən sonra öz qüvvəsini itirmişdir.

Böyük Britaniyada korrupsiya və onun doğurduğu neqativ hallarla mübarizənin daha da genişləndirilməsi yönümündə atılan addımlardan biri XX əsrin 80-ci illərinə təsadüf edir. Bu məqsədlə 1983-cü ildə *xalqın nümayəndəliyi haqqında Akt* qəbul olunub. Bu Qanun nəzarət və cəza sistemini qlobal institusional idarəetmə səviyyəsinə qədər genişləndirərək, parlament və ya yerli özünüidarəetmə seçkiləri zamanı rüşvətə görə cinayət məsuliyyəti ilə bağlı müddəaları əha-tə edir. Qanunda qeyd olunur ki, «...cinayət, hər hansı bir vəzifə əldə etmək məqsədilə seçiciyə birbaşa və ya dolayı yolla rüşvətin pul şəklində ödənilməsidir. Rüşvət verənin əsas məqsədi se-çicinin rüşvət verənin və ya başqa bir şəxsin lehinə səs verməsini və ya səs verməkdən çəkinmə-sini təmin etməkdir» [24].

Böyük Britaniyada korrupsiya ilə mübarizə sahəsində hüquqi əsasların və nəzarət mexanizmlərinin inkişafında və təkmilləşdirilməsində əsas dönüş nöqtəsi XXI ilk onilliyinə təsadüf edir. Məhz bu dövrdə korrupsiyanın qloballaşma və transmilliləşmə tendensiyasına cavab olaraq, yeni bir qanun - *2010-cu il rüşvətxorluq Aktı* [14] qəbul edilib. Bu Akt Böyük Britaniyada kor-rupsiya ilə mübarizədə yeni qanunvericilik təcrübəsi formalaşdırmaqla yanaşı, eyni zamanda müvafiq inzibati mexanizmlərin də yaradılmasını şərtləndirdi. O, həm cinayətin özünü, həm də belə əməllərə görə cəzanı yeni, sistemli bir anlayış səviyyəsinə gətirdi, uzun müddət qüvvədə olan köhnəlmiş qanunvericiliyi dəyişdirərək tənzimlənmənin mahiyyət etibarıilə yeni paradiq-masını müəyyən etdi. Yəni, bu Qanun bəyan etdi ki, onun tətbiq sferası təkcə dövlət məmurları üzərində deyil, həm də özəl sektor və biznes fəaliyyətinə nəzarəti də əhatə edir və o, korrupsiya ilə mübarizəni beynəlxalq əməkdaşlığın ən ümdə vəzifələrindən biri kimi qəbul edir. Məhz bu məqsəd və hədəf nəzərə alınmaqla, Qanun korrupsiya əməllərinin harada törədilməsindən asılı olmayaraq, "Birləşmiş Krallıqda biznes fəaliyyəti ilə məşğul olan və ya biznesinin bir hissəsinə sahib olan" təşkilatlara şamil edilən ərazidənkənarlıq fəaliyyət dairəsinə dair müddəa nəzərdə tut-muşdur [14]. 2010-cu il rüşvətxorluq Aktında korrupsiya cinayətlərinə münasibətdə ərazidən-kənarlıq yurisdiksiyasının tətbiqinin mümkünlüyünü nəzərdə tutan müddəanın yer almasının zə-rurliyi və vacibliyi elmi araşdırmalarda da xüsusi qeyd edilir [7,s.27]. İngilis mütəxəsisi Marcus Şolberq də 2010-cu il Aktını müasir dövrdə mühüm əhəmiyyətli hüquqi yanaşmaları, çağırışları. reallıqları özündə ehtiva edən təkmil antikorrupsiya qanunvericiliyi hesab edir. Onun fikrincə, bu Qanunun məqsədi rüşvətxorluq əməlinin fərqli formaları ilə getdikcə daha çox məşğul olan in-sanların və təşkilatların korrupsiya ilə bağlı Böyük Britaniya hüdudlarında və kənarda məhkəmə təqibini

daha asan həyata keçirmək üçün müasir qanunvericilik prinsiplərini təmin etməkdir [26].

Aktın ümumi təfsirindən də belə bir məntiqi nəticəyə gəlmək olur ki, korrupsiya sahə-sində mübarizə məsələləri təkcə bir dövlətin qanunvericiliyini narahat edən problem olaraq qal-mır və ona görə də belə qanunlarda onunla mübarizənin beynəlxalq əməkdaşlıq aspektləri nəzərə alınmalıdır. Əslində Böyük Britaniya kimi qədim tarixi ənənələrə malik olan bir dövlətdə yeni qanunvericiliyin qəbul edilmə zərurətini də məhz bu sahədə beynəlxalq hüquqi əməkdaşlığa olan tələbatla əlaqələndirmək mümkündür.

Bir məsələni də qeyd etmək yerinə düşər ki, Böyük Britaniyada antikorrupsiya qanunve-riciliyi sferasında hüquqi islahatların aparılması təşəbbüsü İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatına (İƏİT) məxsusdur. Bu Təşkilatın hesabatında İƏİT-nın Beynəlxalq biznes əməliyyatlarında xarici rəsmi şəxslərin rüşvət əməllərinə qarşı mübarizə haqqında Konvensiyanın imple-mentasiyası ilə bağlı Britaniyanın uğursuz fəaliyyəti tənqid olunmuş və bu sahədə qanunvericilik islahatlarına ehtiyacın olduğu vurğulanmışdır. İƏİT İşçi Qrupu tövsiyə etmişdir ki, Birləşmiş Krallıq xarici dövlət məmurlarının rüşvətxor əməlləri ilə mübarizəni açıq şəkildə özündə ehtiva edən hərtərəfli qanunvericilik aktının işlənib hazırlanmasını öhdəsinə götürməlidir [21]. Sözü-gedən Qanunun qəbulundan sonra mövcud vəziyyəti qiymətləndirərək Böyük Britaniyanın o zamankı ədliyyə naziri Cek Strou vurğulamışdır ki, bu hüquqi sənəd Böyük Britaniyanın beynəl-xalq səylərini və rüşvətxorlğun bütün növləri üzrə səmərəli mübarizənin aparılması üçün məh-kəmələrin və prokurorların fəaliyyətini dəstəkləyən və tamamlayan müasir, aydın və vahid tən-zimlənmənin əsaslarını tənzim edir. Britaniya Ədliyyə Nazirliyi bu Akta universal hüquqi yanaş-ma sərgiləyərək, onu ABŞ-ın 1977-ci il Xarici korrupsiya təcrübələri haqında Aktından daha çox uzaq məqsədlərə hesablandığı və ərazidənkənar tətbiq imkanlarına malik olduğunu qeyd etmiş-dir.

2010-cu il Aktında rüşvətxorluğun dörd pozuntu forması müəyyən edilmişdir: başqa şəxsin pulla ələ almağın və ya rüşvət qəbul etməyin iki ümumi pozuntusu; xarici məmurların ələ alınması və rüşvətxorluğun qarşısının alınmasına maneə törədən hallara görə ciddi məsuliyyət. Bu Aktla eyni zamanda, dövlət məmurlarının şəxsi var-dövlətləri, əsassız varlanma məsələləri də tənzimlənir.

Britaniyada korrupsiya cinayətləri ilə bağlı maraqlı hüquqi problemlərdən biri də bu əməllərə görə tətbiq olunan cəzalar və ümumiyyətlə korrupsiyaya görə məsuliyyət məsələsidir. Qanunda müəyyən edilir ki, bu cinayətə görə təqsirli bilinən şəxslər maksimum 10 il azadlıqdan məhrumetmə cəzası və ya 5000 funt sterlinq cərimə ilə cəzalandırılır [14]. Göründüyü kimi, bu ölkənin qanunvericisi korrupsiya ilə bağlı kifayət qədər sərt cəzalar müəyyən etmiş və problemlə bağlı barışmaz mövqeyini ortaya qoymuşdur.

Dünyanın qanunvericilik təcrübəsində korrupsiyanın təzahür formalarından biri olan "*maraqların toqquşması*" ilə bağlı məsələlər də elmi yanaşma tələb edən problemlərdəndir. Kor-rupsiya ilə mübarizə üzrə Britaniya təcrübəsi və qanunvericiliyində maraqların toqquşmasının xüsusi növü olan *nepotizmlə* bağlı əlaqədar nüanslar xarakterikdir. Nepotizim (latınca, nepos, hal, nepotis "nəvə, bacıoğlu, qardaşoğlu" həmçinin, qohumbazlıq, tayfabazlıq, favorotizmin bir növü, imtiyazların, vəzifələrin qohum və dostlara, onların peşəkar qabiliyyətlərindən asılı olmayaraq verilməsi) hər hansı şəxsin tutduğu dövlət vəzifəsindən sui-istifadə, ailə üzvlərindən birini işlə təmin etməsi ilə bağlı neqativ elementlərdir. Qohumların işə götürülməsi məsələsində məhdudiyyətlər Britaniya qanunvericiliyində təsbit olunmuş və əsas insan hüquqlarının pozuntusu hesab edilmişdir. Heç də təsadüfi deyildir ki, Birləşmiş Krallıqda hökumətin keçmiş nazirlərinin işə götürülməsi inzibati vasitələrlə tənzimlənir. Nazirlər Məcəlləsinin 9-cu fəslində nazirlərin dövlət vəzifəsindən getməsindən son-

ra, onların yenidən işə götürülmələri ilə bağlı rəhbər müd-dəalar öz ifadəsini tapmışdır. Öz vəzifəsindən getdikdən sonra nazirlər sahibkarlıq sahəsində və-zifəyə, istənilən münasib işə təyin olunmaq məqsədilə (ödənişsiz vəzifə istisna olmaqla) məs-ləhət üçün müstəqil məsləhət komitəsinə müraciət etməlidir. Bu komitə isə sabiqlər işdən gedən-dən sonra iki il ərzində qəbul edir. Buna görə də məsləhət komitəsinin fikrincə, hökumətə gəlmə ərəfəsində nazirin ərizəsi və qərarı təsirə məruz qalıbsa, uyğun firma və təşkilatda yaxın gələ-cəkdə işə düzəlməyə ümid edibsə, yaxud bu və ya digər işə götürən keçmiş nazirin də əli çatdığı rəsmi informasiyadan qanunsuz faydalanıbsa və bu ictimaiyyətdə narahatlıq doğurursa, komitə onu yuxarıda qeyd olunan müddət bitdikdən sonra işə götürə bilər [20]. Fikrimizcə, Britaniya qanunvericiliyində nəzərdə tutulan bu spesifik məsələ də korrupsiya ilə mübarizə tədbirləri çər-çivəsində digər ölkələrin, o cümlədən Azərbaycan Respublikasının qanunvericiliyində tətbiq edi-lə bilər.

Yuxarıda qeyd olunan neqativ elementlərin qarşısının alınması üçün Britaniyada sabiq nazirlər üçün konkret məhdudiyyətlər qoyulmuşdur. Onlar məsləhət komitəsinə müraciət edən zaman bu nazirlərin özəl sahəyə keçmələrini təxirə saldıqları barədə komitə zəmanət verir. Na-zirlərin işə düzəlmələri və özəl sektorda müqavilə ilə işə götürülmələri istənilən halda davranış kodeksinə uyğun olmalıdır; bu və ya digər məsləhət orqanı, nazirlərin gələcəkdə işə düzəlmələri ilə bağlı rəhbər prinsiplərə əməl edilməsində onlara kömək göstərməlidir. Bu xarakterik xüsu-siyyət təkcə özəl sektorda işə götürmələr zamanı yaranmış mübahisəli məsələləri həll etməklə bağlı deyil, eyni zamanda beynəlxalq miqyasda hamı üçün hüquq və inzibati etika alətidir [23].

Korrupsiyanın təzahür formalarından biri olan "*proteksionizm"* də Britaniya təcrübəsində özünəməxsusluğu ilə seçilir. Korrupsiyanın təhlükəli forması kimi, proteksionizm nepotizmə nisbətən daha geniş məna kəsb edir. Bu zaman hər hansı bir işə, vəzifəyə uyğunluğundan asılı ol-mayaraq dostlara üstünlük verilir. Hər şeydən əvvəl proteksiya vəzifəyə təyinat zamanı özünü büruzə verir.

Böyük Britaniyada korrupsiya qarşı mübarizənin hüquqi əsaslarından biri də *Maliyyə ci-nayətləri ilə mübarizə haqqında 2017-ci il Aktdır* (Qanunu) (*Criminal Finances Act 2017*) [15]. Bu Qanun çirkli pulların yuyulması, vergidən yayınma, korrupsiya və terrorizmin maliyyələşdirilməsi kimi ciddi cinayətlərlə səmərəli mübarizə aparmaq üçün hüquq-mühafizə orqanlarına geniş səlahiyyətlər verən qanunvericilik aktıdır. Bu Qanuna əsaslanaraq, Böyük Britaniyanın hü-quq-mühafizə orqanları qanunsuz yolla əldə edildiyi şübhə doğuran qiymətli əşyaların, daşınmaz əmlakın, bank hesablarındakı vəsaitlərin dondurulması və müsadirəsi üçün mexanizmlərdən ya-ralana, həmçinin, şirkətlərin əməkdaşları və ya əlaqəli şəxsləri tərəfindən daxili və ya xarici ver-gidən yayınma hallarının qarşısının alınması üçün zəruri tədbirlər görmədikdə onların cinayət məsuliyyətinə cəlb olunmasına dair müvafiq addımlar atmaqda səlahiyyətlidirlər.

26 oktyabr 2023-cü ildə iqtisadi cinayətlər və korporativ şəffaflıq haqqında Akt (*Econo-mic Crime and Corporate Transparency Act 2023*) [16] özünün tətbiq sahəsinin əhatəliliyinə görə Böyük Britaniyada genişmiqyaslı qanun hesab edilir. Sözügedən Qanunun ən mühüm cə-hətlərindən biri ondan ibarətdir ki, o, dövlət vəsaitləri ilə fırıldaqçılıq, vəzifə səlahiyyətlərindən sui-istifadə və mənimsəmə/oğurluq da daxil olmaqla, fırıldaqçılığın qarşısını almamaq kimi yeni bir cinayət tərkibini hüquqi mübarizə dövriyyəsinə daxil edib. Qanunun müddəalarının tətbiq dairəsi Böyük Britaniyada qeydiyyatdan keçmiş təşkilatlara və onların ortaqlarına, o cümlədən hüquqi şəxs yaratmamış təşkilatlara, eləcə də Böyük Britaniyada fəaliyyət göstərən xarici şirkət-lərə şamil edilir.

Qanunda yuxarıda sadalanan təşkilatların məsuliyyətə cəlb olunmasını şərtləndirən me-

yalar təsbit olunub. Belə ki, aşağıdakı meyarlardan ən azı ikisinə cavab verən təşkilatlar məsuliyyətə cəlb edilə bilər: 250 və ya daha çox işçi; illik dövriyyəsi 36 milyon funt sterlinq; ümumi aktivləri 18 milyon funt sterlinq.

Təşkilat aşağıdakı hallarda təqsirli bilinə bilər: təşkilatla əlaqəli olan şəxs birbaşa təşkilatın maraqları naminə və ya təşkilatın xidmət göstərdiyi şəxsin (işçi, agent, törəmə müəssisə) maraqları naminə cinayət törətdikdə və ya təşkilata xidmət göstərən və ya onun adından xidmət göstərən hər hansı bir şəxs; təşkilatın işçisi təşkilat üçün birbaşa və ya dolayı yolla fayda əldə etmək məqsədi ilə cinayət törədərsə. Qanunun tələbinə görə, əgər təşkilat günahkar hesab edi-lərsə, onda məhkəmə vurulmuş zərərin həcmini və xarakterini nəzərə alaraq ona cərimə tətbiq edə bilər. Onu da qeyd edək ki, 2023-cü il Qanununda müəyyən edilmiş maksimum cərimə yoxdur. Təşkilat araşdırma prosesində özünün cinayətin qurbanı olduğunu sübut edə bilsə, onda o, məsuliyyətdən tamamilə azad edilə bilər.

2023-cü il Aktının ondan əvvəlki qanunlardan fərqləndirən bir sıra üstünlüklərini də qeyd edə bilərik. Bu Akt reystrə daxil edilən və ya orada mövcud olan məlumatların yoxlanılması, şübhəli və ya saxta olduğu müəyyən edilən qeydlərin araşdırılması və tənzimlənməsi səlahiyyət-lərini gücləndirmişdir (*companies house),* vəzifəli şəxslər üçün identifikasiya prosesi məcburi öhdəlik olaraq müəyyən edilmişdir, cinayət məsuliyyətinin gücləndirilməsi məqsədi ilə təkcə yuxarı rəhbər şəxslərin deyil, həm də aşağı səviyyəli şəxslərin də qanunsuz hərəkətləri şirkətə aid olunan əməl kimi müəyyən edilmişdir və ən əsası isə fırıldağçılıq cinayətlərinin qarşısının alın-ması üçün tədbirlərin görülməməsi (*failure to prevent fraud)* yeni bir cinayət tərkibi kimi təsbit olunmuşdur.

Böyük Britaniyada korrupsiya ilə mübarizə üzrə fəaliyyət göstərən səlahiyyətli orqanlar sistemi mövcuddur. Belə təşkilati mübarizə strukturlarından biri - ciddi maliyyə cinayətləri ilə mübarizə İdarəsidir (SFO). Bu İdarə Böyük Britaniyada beynəlxalq rüşvətxorluq və korrupsiya da daxil olmaqla, ciddi iqtisadi cinayətlərlə mübarizə aparan səlahiyyətli orqandır. Bundan baş-qa, Böyük Britaniyada qanunsuz maliyyə axınları və kleptokratiya ilə mübarizə də daxil olmaqla, mütəşəkkil cinayətkarlıq və beynəlxalq korrupsiyaya qarşı mübarizəni koordinasiya edən – cina-yətkarlıqla mübarizə üzrə milli Agentlik (NCA), ciddi maliyyə cinayətləri ilə mübarizə İdarəsi və cinayətkarlıqla mübarizə üzrə milli Agentlik tərəfindən göndərilən cinayət işləri üzrə ittiham funksiyasını həyata keçirən – Kral Prokurorluq Xidməti (CPS), tez-tez korrupsiya sxemləri ilə müşayiət olunan vergidən yayınma və maliyyə cinayətlərinin istintaqını həyata keçirən – gömrük rüsumları və vergi üzrə İdarə (HMRC), iqtisadi cinayətlər üzrə milli koordinator kimi xidmət edən və Böyük Britaniyanın maliyyə sektorunda fırıldaqçılıqla bağlı işlərlə mübarizə aparan – London Şəhər Polisi (LCP), idarələrarası antikorrupsiya strategiyasının həyata keçirilməsinə mə-sul olan və müxtəlif nazirliklərin işinə nəzarət edən hökumət koordinatoru – xüsusi müşavir (ko-missar) fəaliyyət göstərir.

Böyük Britaniyada korrupsiya ilə mübarizədə vətəndaş cəmiyyətinin də özünəməxsus yeri və mövqeyi var. Bu istiqamətdə ən çox tanınan qurum -Antikorrupsiya Forumudur. 2004-cü ildə təsis olunmuş Forumun məqsədi korrupsiyadan azad olan bir biznes mühitinin yaradılmasına yardımçı olmaqdır. Bu qurum Birləşmiş Krallığın biznes dairələrinin, peşəkar institutlarının, mülki cəmiyyət təşkilatlarının, daxili və beynəlxalq infrastrukturda, konstruktor və mühəndis sektorunda maraqları olan şirkətlərin alyansı kimi çıxış edir. Qeyd olunmalıdır ki, bu Forum Bri-taniyada korrupsiya ilə mübarizə üzrə bir sıra təşəbbüslərə imza atmış, son illərdə qanunvericilik islahatları ilə bağlı bir sıra uğurlu cəhdlər etmişdir. 2010-cu il Rüşvətxorluq Aktının qəbul edil-məsi üzrə liderlik də məhz bu qurumun adı ilə bağlı olmuş, qeyd olunan qanunun təbliğində, onun beynəlxalq praktikada tanınma-

sında və öyrənilməsində, habelə bu Aktın Britaniya biznes dairələrində daha səmərəli tətbiqində və korrupsiya əməllərindən yan keçilməsində həvəsləndir-mədə xüsusi rolu olmuşdur [12].

Beləliklə, Böyük Britaniyanın antikorrupsiya qanunvericiliyinin təhlilindən belə bir nəti-cəyə gəlmək olur ki, bu ölkədə korrupsiya ilə mübarizə mədəniyyəti nə qədər qədim tarixi təc-rübəyə söykənmiş olsa da, lakin qloballaşmanın reallıqları və çağırışları nəzərə alınmaqla, bu əmələ qarşı mübarizənin yeni məqamlarını özündə ehtiva edən ciddi qanunvericilik sisteminin yaradılması istiqamətində mühüm addımlar atılmışdır. Hal-hazırda qüvvədə olan qanunvericilik aktları korrupsiya cinayətlərinə görə mümkün mübarizə mexanizmlərinin təsir dairəsini geniş-ləndirmiş, həm də daha sərt cəzalar müəyyən etmiş və korrupsiyanın qlobal mübarizənin pred-meti olması zərurətini bir daha ortaya qoymuşdur.

b) Amerika Birləşmiş Ştatlarında korrupsiya ilə mübarizənin hüquqi və nəzarət mexanizmləri

Anqlo-sakson hüquq ailəsinə daxil olan ölkələr içərisində korrupsiya ilə mübarizə üzrə Amerika Birləşmiş Ştatlarının (ABŞ) qanunvericilik təcrübəsinin öyrənilməsi həm elmi-nəzəri, həm də hüquqi islahatlar müstəvisində müvafiq implementasiya tədbirlərinin görülməsi baxımından olduqca aktuallıq kəsb edir. ABŞ-da korrupsiya ilə mübarizə tədbirlərinin təşəkkül tap-ması və inkişafı uzun bir tarixi yol keçsə də, bu ölkədə antikorrupsiya modelinin təməli 1977-ci il *Korrupsiyalaşmış xarici praktika haqqında Qanunun* (Foreign Corrupt Practices Act) qəbulundan qoyulub [17]. Qanunun qəbulu "Gulf Oil Corporation", "Global Reach", "Northrop Cor-poration", "Exxon Corporation", "Mobile Oil Corporation", "Lockheed Corporation" kimi ABŞ-ın 400-ə yaxın nəhəng şirkətlərinin müxtəlif ölkələrdən olan vəzifəli şəxslərə rüşvət vermələri ilə bağlı bir sıra böyük korrupsiya qalmaqalları dövrünə təsadüf edib.

Bu Qanun bir neçə aspektdə özünün əhəmiyyətliliyi ilə fərqlənir. *birincisi,* o, ABŞ hüquqi və fiziki şəxsləri tərəfindən öz bizneslərini genişləndirmək və ya onu qoruyub saxlamaq məqsə-di ilə xarici vəzifəli şəxslərə rüşvət verməyi qadağan edir; *ikincisi,* bu Qanun nəinki birbaşa pulla ələalmanı, həmçinin məsləhətçilər, agentlər, qız şirkətlər və hətta birgə müəsissələrin vasitəçili-yi ilə pul vəsaitlərinin verilməsini də qadağan edən tənzimlənməni müəyyən edir; *üçüncüsü,* Qa-nunda onun müddəalarının şəxslərə tətbiq dairəsi *"xarici vəzifəli şəxslər"* adı altında dəqiq mü-əyyən edilib və ora aiddir: dövlət orqanlarının nümayəndələri, dövlət şirkətlərinin əməkdaşları, beynəlxalq təşkilatların məmurları, dövlətin adından fəaliyyət göstərən istənilən şəxslər; *dördün-cüsü,* bu Qanun səhmləri ABŞ fond birjalarında ticarət edilən publik şirkətlərin üzərinə bütün maliyyə əməliyyatlarının dəqiq, tam və şəffaf qeydlərinin aparılması məqsədi ilə "*mühasibat qeydiyyatı və daxili nəzarət*" tələbinə əməl etmək öhdəliyi qoyur və maliyyə əməliyyatlarında aşağıda qeyd olunan əsas tələblərin mütləq nəzərə alınması istənilir: a) bütün ödənişlərin müha-sibat hesabatlarında dəqiq əks olunması; b) səmərəli daxili nəzarət sisteminin yaradılması; c) "kölgə hesabları"nın və ya uydurma qeydlərin qadağan edilməsi; *beşincisi,* Qanunun təsir dairə-sinin, fəaliyyətinin ərazidənkənarlıq aspektinə malik olması: belə ki, o, yalnız ABŞ şirkətlərinə deyil, həm də ABŞ fond birjalarında iştirak edən xarici şirkətlərə, o cümlədən, ABŞ bankların-dan və ya elektron pul köçürmə sistemlərindən istifadə etməklə, ABŞ-ı əhatə edən korrupsiya sxemlərində iştirak edən xarici şirkətlərə və şəxslərə şamil edilir və bu isə o deməkdir ki, hər hansı şirkətin şübhəli korrupsiya hallarına əsas verən beynəlxalq maliyyə əməliyyatı, əməliyyatın özü ABŞ-dan kənarda bağlansa belə, sözügedən qanunun təsiri altına düşə bilər. Odur ki, bəzi tədqiqatçılar bu Qanunu "təsir doktrinası" çərçivəsində xaricdə tətbiq olu-

nan ən sərt və təsirli milli qanun kimi xarakterizə edirlər [10,s.31].

Status baxımından milli qanun kimi qüvvədə olsa da, FCPA korrupsiya fenomeni ilə bağlı ABŞ-ın özü də daxil olmaqla, bütün dünya dövlətlərinin qanunvericilik praktikasına əsaslı təsir göstərmişdir. Əslində, bu qanunun qəbul olunmasına qədər dünya ölkələri ABŞ-ın beynəlxalq antikorrupsiya standartlarının hazırlanması təşəbbüsünə inamsızlıqla yanaşırdı, çünki XX əsrin 70-ci illərində Amerikanın çoxmillətli korporasiyaları beynəlxalq korrupsiyanın başında duran əsas aktorlar idi. Hətta həmin şirkətlər hər vasitə ilə belə bir qadağanedici sistemin qəbul olunmasına maneə yaratmaqdan belə çəkinmirdilər. Ona görə ki, onun sərt müəyyənliyi, tədqi-qatçıların da qeyd etdiyi kimi Amerika şirkətləri üçün əhəmiyyətli dərəcədə mənfəət itkisinə gə-tirib çıxarmış [9,s.86] və bir növ onların özbaşnalıqlarının qarşısını almağa yönəlmişdir.

Bütün bu fərqli yanaşmaların mövcud olmasına baxmayaraq, ABŞ 1977-ci il Qanunu ilə xarici vəzifəli şəxslərə rüşvət verməyi cinayət hesab edən yeganə ölkə statusunu qazanmışdır [13 ,p.1272]. 1977-ci ildə ABŞ Konqresi kommersiya rüşvətini, yəni rüşvət verməklə kommersiya və ticarət müqavilələrinin imzalanmasını da cinayət əməli kimi qiymətləndirmişdir. Lakin bir məsə-ləni qeyd etmək lazımdır ki, FCPA-nın tətbiqi müəyyən mənada siyasi, iqtisadi və şəxsi maraqlar ucbatından düz 2000-ci illərə qədər məhdud olmuşdur. Məsələn, statistik məlumata görə, 1979-cu ildən 2003-cü ilə qədər bu Qanunun tətbiqi ilə bağlı ABŞ-ın Qiymətli Kağızlar və Birja Ko-missiyası ildə orta hesabla bir, ABŞ-ın Ədliyyə Nazirliyi isə iki iş qaldırmışdır [29,p.428]. La-kin praktikaya XXI əsrin birinci onilliyinin sonundan etibarən FCPA-nın birbaşa tətbiqi ilə bağlı səs-küylü işlər məlumdur. Buna nümunə olaraq: müxtəlif ölkələrdə məmurların sistematik şəkil-də pulla ələ alınmasına görə alman konserni Siemens-in 800 milyon dollardan çox cərimə ödə-məsi işini (2008), Walmart şirkətinin Meksikada, Çində, Hindistanda və Braziliyada məmurlara rüşvət verdiyinə görə 282 milyon cərimə ödəməsi işini (2019), Goldman Sachs-ın Malaziya fon-du ilə korrupsiya sxemində iştirakına görə 3 milyard dollara yaxın cərimə ödəməsi işini (2020) və d. misal göstərə bilərik. Belə əyani faktların mövcudluğu bizə bir fikir söyləməyə əsas verir ki. FCPA xarici şirkətlərə münasibətdə aktiv şəkildə tətbiq edilir.

Qanunda onun müddəalarının pozulmasına görə həm mülki, həm də cinayət məsuliyyəti nəzərdə tutulur. Məsuliyyət tədbiri olaraq cərimə fiziki şəxslərə - hər bir epizod üzrə 250 min dollar, şirkətlərə - hər bir epizod üzrə 2 milyon dollara qədər, azadlıqdan məhrum etmə cəzası fiziki şəxslərə -hər bir korrupsiya maddələri üzrə 5-ilə qədər, şirkətlərə -tətbiq edilmir, mühasibat pozuntularına görə fiziki şəxslərə - 5 ilə qədər azadlıqdan məhrum etmə və 5 milyon dollar cərimə, şirkətlərə - 25 milyon dollar cərimə, əlavə tədbirlər kimi fiziki şəxslərə -aktivlərin müsadirəsi, idarəçilikdə işləmənin qadağan olunması, şirkətlərə - dövlət satınalınmasına buraxılma və kontarktlardan məhrum olunma müəyyən edilir. Qanunun ən mühüm özəlliyindən biri ondan ibarətdir ki, o, korrupsiya əməllərinə görə kollektiv məsuliyyət prinsipin nəzərdə tutur. Yəni, pozuntunu hətta əgər şirkətin agenti və ya vasitəçisi törədibsə belə, məsuliyyət bütün hallarda təşkilatın üzərinə qoyulur.

Beləliklə, ABŞ 1977-ci il Qanunu bu gün korrupsiyanın qloballaşmasının qarşısının alın-masına yönəlik həm dövlətlərin, həm də beynəlxalq təşkilatların birgə əməkdaşlığını təşviq edən bir qlobal etalon və səmərəli hüquqi mexanizmdir. Onun maliyyə əməliyyatları üçün müəyyən etdiyi sərt tələbləri, ən əsası ərazidənkənarlıq tətbiq xüsusiyyətinə malik olması və bu əsasda milyonlarla dollarlıq cərimələrin ödənilməsi, onu beynəlxalq əməliyyatların monitorinqi üçün əsas vasitəyə çevirib. FCPA-nın çəkindirici funksiyası ondan ibarətdir ki, o, xarici bazarlarda fəaliyyət göstərən istənilən ölkənin şirkətləri

üçün sadəcə ABŞ qanunu deyil, həm də gözardı edilə bilməyən bir oyun qaydasıdır.

Problemə sırf Azərbaycan reallıqlarından yanaşsaq, onu təklif edirik ki, ölkənin qanun-verici orqanı ABŞ-ın 1977-ci il Korrupsiyalaşmış xarici praktika haqqında Qanununun müddəa-larına söykənməklə beynəlxalq korrupsiya hallarının qarşısının alınması və aradan qaldırılmasına yönəlik qanun qəbul edə və belə halların cinayət-hüquqi qaydada kriminallaşdırılmasını həyat keçirə bilər. Hesab edirik ki, bunun üçün kifayət qədər əsaslar mövcuddur: *birincisi,* Azərbaycan karbohidrogen ehtiyatları (neft və qaz) baxımından zəngin resurslara malik bir ölkədir və təbii ki, bu fakt xarici dövlətlərin və onların nəhəng korporasiyalarının diqqətini cəlb etməyə bilməz; *ikincisi,* zəngin təbii resurslara çıxışın əldə edilməsi nə qədər hüquqauyğun fəaliyyəti şərtlən-dirirsə, o, bir o qədər də, şübhəli korrupsiya faktlarının mövcudluğunu istisna etmir və bütün bu halları nəzərə alaraq təklif edirik ki, Azərbaycanda xarici vəzifəli şəxslərlə yerli məmurlar, dövlət qulluqçuları, şirkət rəhbərləri arasında rüşvət və korrupsiya kimi qanunsuz sövdələşmələri qadağan edən qanunun qəbul edilməsinə, o cümlədən qüvvədə olan Cinayət Məcəlləsinə konkret cinayət tərkibinin daxil edilməsinə zərurət vardır; *üçüncüsü,* belə bir implementasiya tədbirinin zəruriliyi ondan ibarətdir ki, Azərbaycan şirkətləri xarici bazarlarda iştirak edir və istər-istəməz onlar xarici şirkətlərlə, xarici vəzifəli şəxslərlə müəyyən iqtisadi və kommersiya xarakterli fəa-liyyətə daxil olurlar və onlar ABŞ-ın 1977-ci il Korrupsiyalaşmış xarici praktika haqqında Qanu-nunun ərazidənkənarlıq yurisdiksiyasından sığortalanmayıblar; *dördüncüsü,* ABŞ-ın qüvvədə olan bu Qanunu yuxarıda vurğulandığı kimi xarici bazarlarda fəaliyyət göstərən istənilən ölkənin şirkətləri üçün sadəcə ABŞ qanunu deyil, həm də gözardı edilə bilməyən bir oyun qaydasıdır, yəni Azərbaycana məxsus olan şirkətlərin, vəzifəli şəxslərin istənilən xarici ölkənin şirkətləri və vəzifəli şəxsləri ilə şübhəli korrupsiya fəaliyyəti ciddi məsuliyyət tədbirlərinin tətbiqinə gətirib çıxara bilər. Hesab edirik ki, mövcud problemin həllinin ən optimal yolu milli qanunun qəbul olunmasıdır.

ABŞ-da antikorrupsiya fəaliyyətinin tənzimlənməsinin hüquqi mexanizmlərindən biri də - *Dodd-Frank Uol Strit İslahatı və İstehlakçıların Müdafiəsi Qanunudur* (Dodd-Frank Wall Stre-et Reform and Consumer Protection Act) [27]. Bu Qanun 2008-ci il maliyyə böhranına cavab olaraq 2010-cu ildə qəbul edilib və 2011-ci ildə qüvvəyə minib. Qanunun adı onu təklif edən Barni Frankın və Krisa Doddun şərəfinə Dodd–Frank Act-ı adlandırılıb. Onun əsas məqsədi ma-liyyə sistemini tənzimləmək, istehlakçıları aldadıcı maliyyə təcrübələrindən qorumaq, qlobal korrupsiya ilə mübarizəni gücləndirmək, rüşvətxorluq və maliyyə cinayətlərinin aşkar edilməsi üçün güclü alətlər təqdim etməkdən ibarətdir. Qanunun antikorrupsiya rolu üç əsas mexanizm vasitəsilə həyata keçirilir:

1. *ifşaçı proqramı əsasında* – korrupsiya ilə bağlı məlumat verən şəxslərə dair məxfiliyin və işdən çıxarılmadan qorunmanın təmin edilməsi və mükafatlandırılması qaydasında;

2. *FCPA-nın tətbiqi əsasında* - xüsusən, beynəlxalq rüşvət və maliyyə fırıldaqçılığı barədə ABŞ-ın Qiymətli Kağızlar və Birja Komissiyasına məlumatın verilməsi yolu ilə;

3. *transsərhəd əhatə əsasında*, yəni, Dodd-Frank Act-ın rüşvət əleyhinə müddəalarının xarici ərazilərdə transmilli şirkətlərə şamil olunması qaydasında.

Hal-hazırda ABŞ-da korrupsiya ilə mübarizə çərçivəsində aşağıda adları qeyd olunan qa-nunlar da qüvvədədir: xarici vəzifəli şəxslərin özləri tətəfindən (qəbul edən tərəf) rüşvət istəmək və qəbul etmək praktikasını kriminallaşdıran – *xaricdə hədə-qorxu ilə tələb etmənin qarşısının alınması haqqında Qanun* (Foreign Extortion Prevention Act*),* ABŞ daxilində dövlət qulluq-çuları tərəfindən rüşvətxorluğu və qanunsuz mükafatlandırma hallarını kriminallaşdıran ABŞ-ın *Qanunlar külliyatının 18 bölməsi* (201-

ci m.), dövlət qulluqçuları üçün davranış standartlarını tənzimləyən və onlardan gəlirlərini bəyan etmələrini və maraqların toqquşmasının qarşısının alınmasını tənzim edən 1978-ci il *Hökumətdə Etika Qanunu* (Etics in Government Act*),* Federal *Maliyyələşdirilən Proqramlar üzrə Saxtakarlığın Qarşısının Alınması Qanunu* (ABŞ-ın Qanun-lar külliyatının 18 bölməsinin 666-cı paraqrafı), ABŞ-a maliyyə və viza sanksiyaları vasitəsilə dövlət vəsaitlərinin irimiqyaslı mənimsənilməsində iştirak edən xarici korrupsioner məmurları və şəxsləri cəzalandırmaq imkanı verən sanksiyalar vasitəsilə *Amerikanın rəqiblərinə qarşı müba-rizə Aktı və Qlobal Maqnitski Aktı*, mütəşəkkil cinayətkarlıq və korrupsiya şəbəkələrinin əməl-lərini qadağan edən *RİKO Aktı* (RİCO- Racketeer İnfluenced and Corrupt Organizations Act*),* korrupsiya sxemlərini həyata keçirmək üçün poçt və elektron rabitə sistemlərindən (İnternet, e-poçt, beynəlxalq köçürmələr) istifadəni qadağan edən poçt və teleqraf fırıldaqçılığı (Mail and Wire Fraud - ABŞ-ın Qanunlar külliyatının 18 bölməsinin 1341və1343-cü paraqrafları), rüşvət və ya digər qeyri-qanuni korrupsiya fəaliyyətlərini maliyyələşdirmək üçün ştatlar və ya ölkələrarası sə-yahətdən və rabitədən istifadəni ABŞ-ın qanunlar külliyatının 18 bölməsinin 1952-ci paraqrafı üzrə cinayət hesab edən *Səyahət Aktı* (Travel Act) və d.

ABŞ-da korrupsiya ilə mübarizə sahəsində səlahiyyət bütövlükdə hansısa bir dövlət orqanının əlində cəmləşməmişdir. Bu ölkədə antikorrupsiya tədbirləri Ədliyyə Nazirliyi, Federal Təhqiqatlar Bürosu, Maliyyə Nazirliyi, Qiymətli Kağızlar və Birja Komissiyası, Vergi Xidməti, Dövlət Etika İdarəsi, Hökumət Hesabat İdarəsi, Federal Seçki Komissiyası, Baş müfəttişlər, Federal Auditorlar, Konqres, xarici siyasətdə korrupsiya ilə mübarizə strategiyasını tənzimləyən Dövlət Departamentinin Qlobal Antikorrupsiya Koordinatoru Ofisi və d. nəzarət orqanları tərə-findən həyata keçirilir. ABŞ-da korrupsiya ilə mübarizədə dövlət nəzarətini dəstəkləyən nüfuzlu qeyri-hökumət təşkilatları, özəl hüquqi şəxslər, media qurumları da fəaliyyət göstərir.

Korrupsiya ilə mübarizənin cinayət-hüquqi tərəfi ABŞ-ın Ədliyyə Nazirliyinin simasında Federal Təhqiqatlar Bürosunun üzərinə qoyulub. FTB-nin Vaşinqtondakı ofisində *Public Corruption Unit* adlı ixtisaslaşmış bölməsi korrupsiyanın aşkarlanması və araşdırılması üzrə əsas qu-rum hesab edilir. O, bu məqsədlə ölkə miqyasında araşdırmaları koordinasiya edir, strateji anti-korrupsiya tədbirləri hazırlayır, rüşvətxorluğu, vəzifə səlahiyyətlərindən sui-istifadəni, saxtakar-lığı, federal vəsaitlərin mənimsənilməsini və məhkəmə proseslərinə müdaxiləni (təsir alveri aspektində) ifşa etmək üçün zəruri tədbirlər görür, habelə şübhəli əməliyyatları gizli şəkildə qeydə almaq və izləmək üçün maliyyə kəşfiyyatından istifadə etmək, gizli agentlər yerləşdirmək və bu kimi qanunla müəyyən edilmiş səlahiyyətə malikdir.

FTB-nin səlahiyyətinə həmçinin beynəlxalq korrupsiya ilə mübarizə də daxildir. O, ABŞ-ın Ədliyyə Nazirliyi ilə birlikdə 1977-ci il Korrupsiyalaşmış xarici praktika haqqında Qanuna əsaslanmaqla, transmilli korporasiyaları xarici vəzifəli şəxsləri pulla ələ almalarına, şübhəli maliyyə əməliyyatları həyata keçirmələrinə görə məsuliyyətə cəlb edə bilər. Beynəlxalq korrupsiya ilə mübarizənin səmərəliliyi baxımından, FTB ölkənin nəhəng iqtisadi mərkəzləri olan Nyu Yorkda, Vaşinqtonda və Los Anclesdə hər birinin tərkibi 30 nəfər əməkdaşdan ibarət beynəlxalq korrupsiya ilə mübarizə şöbələri açmışdır. ABŞ-ın Ədliyyə Nazirliyinin məlumatına görə, son beş il ərzində FCPA-nın müddəalarının tətbiqi əsasında 50-dən çox şirkətin şübhəli beynəlxalq fəaliyyəti aşkar edilərək onlara ümumi dəyəri 3 milyard dollar civarında cərimə müəyyən edilmişdir [28].

ABŞ-da antikorrupsiya siyasətinin həyata keçirilməsində mühüm rola və səlahiyyətə ma-lik olan nəzarət mexanizmlərindən biri də - Qiymətli Kağızlar və Birja Komissiyasıdır (*Securiti-es and Exchange Commission –SEC).* SEC 1934-

cü ildə Böyük böhrandan sonra prezident Franklin Ruzvelt tərəfindən maliyyə bazarlarında şəffaflığı təmin etmək və fırıldaqçılığın qarşısını al-maq məqsədilə yaradılmış federal qurumdur. Onun əsas fəaliyyət istiqamətinə ABŞ-ın fond ba-zarlarının tənzimlənməsi, qiymətli kağızlarla bağlı qanunların icrası, investorların hüquqla-rının qorunması, kriptovalyutalar və suni intellekt bazarında müasir maliyyə məsələlərinə dair qayda-ların tənzimlənməsi, korporativ korrupsiya, ilk növbədə xaricə keçən rüşvətxorluq və maliyyə maxinasiyaları ilə mübarizə aparmaq daxildir.

SEC xaricə keçən və yaxud xaricdə baş verən korporativ korrupsiya ilə mübarizədə hü-quqi əsas kimi FCPA-nın müddəalarını əldə rhbər tutur. Ona görə ki, bu Qanun ABŞ-ın fond birjalarında qeydiyyatdan keçmiş ABŞ və xarici şirkətlərin xarici vəzifəli şəxslərə biznes əldə etmək və ya saxlamaq üçün rüşvət verməsini qadağan edir. O, korrupsiyaya qarşı mübarizə fəaliyyətini üç aspektdə həyata keçirir:

1. rüşvət araşdırmaları;
2. şəffaflığın təmin edilməsi barədə hesabat;
3. birgə yurisdiksiya.

SEC-in rüşvət araşdırmaları istiqamətində fəaliyyəti maliyyə sui-istifadələrini, qanunsuz ödənişləri və ya digər korporativ xərclər kimi düzəldilmiş rüşvətləri axtarmaq və onları aşkar etməkdir. Şəffaflığın təmin edilməsi barədə hesabatda Komissiya şirkətlərdən bütün maliyyə əməliyyatlarını əks etdirən dəqiq mühasibat uçotu qeydlərini aparmalarını ciddi şəkildə tələb edir. Bu qaydaların pozulması çox vaxt korrupsiya sxemlərinin aşkarlanmasında əsas dəlillərə çevrilir. SEC birgə yurisdiksiya müstəvisində ABŞ-ın Ədliyyə Nazirliyi ilə sıx əməkdaşlıq edir. Birgə yurisdiksiya dolayısı ilə mülki məsuliyyət və cinayət məsuliyyəti kontekstində həyata keçirilir. Belə ki, SEC şirkətləri mülki cərimələr və qanunsuz qazancların müsadirə edilməsi ilə cəzalandırarkən, Ədliyyə Nazirliyi isə FTB-nin simasında təqsirli şəxsləri və qurumları cinayət məsuliyyətinə cəlb edir.

ABŞ-da antikorrupsiya tədbirlərinin həyata keçirilməsində aktiv rol oynayan nəzarət mexanizmlərindən 1978-ci il -ci il Hökumətdə Etika Qanunu (*Etics in Government Act)* əsasında yaradılmış Hökumət Etika İdarəsinin (*United States Office of Government Ethics* - OGE) fəaliy-yəti də xüsusi qeyd edilməlidir [28]. HEİ ABŞ-ın icra hakimiyyəti orqanlarında maraqların toq-quşmasının qarşısını almaq və yüksək etika standartlarını qorumaq məqsədilə yaradılmışdır. O, dövlət məmurlarının dürüstlüyünü təmin etmək və dövlət qurumlarına ictimai etimadın artırılma-sı naminə bütün federla qurumlar üçün məcburi olan etik davranış qaydaları hazırlayır və dərc edir, Ağ Ev işçiləri, Konqres işçiləri, federal hakimlər və agentlik rəhbərləri də daxil olmaqla yüksək vəzifəli şəxslərin maliyyə açıqlamalarını (gəlir, investisiyalar, əmlak və d.) təhlil edir və yoxlayır, pozuntular aşkar etdikdə, nəticələri Ədliyyə Nazirliyinə və ya Konqresin Etika Komi-tələrinə göndərir. HEİ aşkar etdiyi müvafiq pozuntuya görə təhqiqat aparmaq səlahiyyətinə malik deyil, o, sadəcə məlumatlandırıcı funksiya həyata keçirir. Əgər hər hansı bir qanun pozuntusu barədə bu quruma məlumat daxil olarsa, o, dərhal Ədliyyə Nazirliyinə məlumat verir. Ədliyyə Nazirliyi isə öz növbəsində müvafiq tədbirlər görür. Bu idarənin səmərəliliyi onun fəaliyyətinin ictimaiyyətə açıq olması ilə bağlıdır.

Korrupsiya ilə mübarizədə dövlət nəzarətini dəstəkləyən nüfuzlu qeyri-hökumət təşkilatlarının yaradılmasında da ABŞ bir dövlət kimi xüsusi rol oynamışdır. Belə qeyri-hökumət təşkilatlarına misal olaraq: korrupsiya ilə mübarizə aparan yerli və beynəlxalq təşkilatlara antikorrupsiya islahatlarının həyata keçirilməsinə yardım göstərən *Global İntegrity* antikorrupsiya təşkilatını, dünyada şəffaflığı təşviq edən və dövlət siyasətinə islahatlar təklif edən *Transparency İnternational U.S.* təşkilatını, korrupsiyanı aradan qaldırmaq, siyasi maliyyələşdirməni şəffaflaşdırmaq və seçki sistemində islahatları müdafiə edən *Common Cause* təşkilatını, siyasətdə və hö-kumətdə etik qaydaların pozulması hallarını

araşdıraraq məhkəməyə verən *Citizens for Respon-sibility and Ethics in Washington* təşkilatını, transmilli korrupsiya, qeyri-qanuni maliyyə axınları və təbii sərvətlərin mənimsənilməsi sahəsində araşdırmalar aparan *Global Witness* təşkilatını, hökumət daxilində korrupsiya, israfçılıq və sui-istifadə hallarını üzə çıxaran *Project on Gover-nment Oversight* təşkilatını və d. qeyd edə bilərik.

Beləliklə, ABŞ-ın mövcud antikorrupsiya təcrübəsi onu deməyə əsas verir ki, bu ölkədə ötən əsrin ikinci yarısından etibarən formalaşmış hüquqi baza bu sahədə həm dövlətdaxili hüquqi praktikanın, həm də beynəlxalq əməkdaşlığın möhkəmlənməsinə xidmət etmişdir. Odur ki, ABŞ kimi inkişaf etmiş dövlətin praktikası və oturuşmuş qanunvericiliyi Azərbaycan Respublikası da daxil olmaqla digər ölkələr üçün model hüquqi mexanizm kimi qəbul edilə bilər.

Nəticə

Aparılan araşdırmanın və təhlilin yekunu olaraq aşağıdakı nəticələrə gələ bilərik: *birin-cisi.* korrupsiya dövlətlərin iqtisadi, siyasi və sosial sabitliyinə və maraqlarına, demokratik təsisatlara, qanunun aliliyinə, insan hüquqlarına ciddi təhlükə yaradan və bu dəyərləri kobud şəkildə pozan kriminal qloballaşmanın ən təhlükəli təzahürlərindən biridir; *ikincisi.* korrupsiya transmil-liləşmə tendensiyası ilə xarakterizə olunan ciddi hüquq pozuntusu olduğu üçün, onunla müba-rizə iki hüquq sisteminin, yəni dövlətdaxili hüququn və beynəlxalq hüququn qarşılıqlı təsirini və tətbiqini tələb edir; *üçüncüsü,* Böyük Britaniyada korrupsiya ilə mübarizə sahəsində ən mühüm dönüş nöqtəsi 2010-cu il rüşvətxorluq Aktının (*The Bribery Act 2010*) qəbuluna təsadüf edir və bu Qanun bir neçə aspektdə korrupsiya ilə mübarizənin yeni paradiqmasını meydana gətirdi, belə ki, o, həm cinayətin özünü, həm də belə əməllərə görə cəzanı yeni, sistemli bir anlayış səviyyə-sinə çıxardı, özünün əhatə dairəsini təkcə dövlət məmurlarına deyil, özəl sektor və biznes fəaliy-yətilə məşğul olan şəxslərə, habelə ərazidənkənarlıq aspektində xaricdə baş verən korrupsiya əməllərinə şamil edərək, ona qarşı mübarizənin beynəlxalq əməkdaşlıq müstəvisində vacibliyini bəyan etdi; *dördüncüsü,* ABŞ-da korrupsiya ilə mübarizə tədbirlərinin təşəkkül tapması və inki-şafı uzun bir tarixi yol keçsə də, bu ölkədə antikorrupsiya modelinin təməli 1977-ci il Korrupsi-yalaşmış xarici praktika haqqında Qanunun qəbulundan qoyulub və o, xarici vəzifəli şəxslərə rüşvət verməyi cinayət hesab edən ilk dövlətdaxili qanunvericilik aktıdır; *beşincisi,* ABŞ-ın 1977-ci il Qanunu bu gün korrupsiyanın qloballaşmasının qarşısının alınmasına yönəlik həm dövlətlərin, həm də beynəlxalq təşkilatların birgə əməkdaşlığını təşviq edən, maliyyə əməliy-yatları üçün sərt tələblər müəyyən edən, ən əsası isə ərazidənkənarlıq tətbiq xüsusiyyətinə malik olan səmərəli hüquqi mexanizmdir; *altıncısı,* korrupsiya problemi nə qədər qlobal mahiyyət kəsb etsə də, hər bir dövlət korrupsiya ilə müstəqil və bildiyi yolla mübarizə aparmalıdır, çünki, anti-korrupsiya islahatlarını yerlərdə hazırlamaq, yerli təşəbbüslər vasitəsilə həyata keçirmək zəru-ridir, lakin bu prosesdə dövlət beynəlxalq təcrübəyə əsaslanan motivasiya tədbirlərindən istifadə etməlidir; *yeddincisi,* məqalədə əsaslandırılan yanaşmalar, tövsiyə və təkliflərin elmi yeniliyi on-dan ibarətdir ki, korrupsiya və onun müxtəlif təzahür formaları məkan-ərazi və personal-şəxs ba-xımından beynəlxalq və yaxud transmilli əhəmiyyət kəsb edən və eyni zamanda hüquqi müba-rizə mexanizmlərinin daimi təkmilləşdirilməsini tələb edən – sosial-hüquqi hadisədir və odur ki, Azərbaycan Respublikası özünün antikorrupsiya siyasətini inkişaf etdirərkən, onu təkmilləşdirərkən korrupsiya ilə mübarizədə həm hüquqi tənzimləmə, həm də nəzarət sahəsində kifayət qədər böyük uğurlar qazanmış Böyük Britaniya və ABŞ kimi aparıcı ölkələrin təcrübəsindən yararla bilər.

İstifadə edilmiş ədəbiyyat siyahısı:

1. Hüseynov R. Korrupsiya cinayətlərinin ictimai təhlükəlilik dərəcəsi və cəmiyyətə təsiri // ELMİ İŞ Beynəlxalq Elmi Jurnal. Cild: 19 Sayı: 5, 2025, s. 195-199
2. Məmmədov R.F., Qənbərov H.D., Məmmədov X.R. Korrupsiya ilə mübarizə: beynəlxalq hüquq və Azərbaycan Respublikasının milli qanunvericilik təcrübəsi. Bakı, Azərnəşr, 2013. 216 s.
3. Məmmədov R.K. Beynəlxalq cinayət hüququ və Azərbaycan Respublikasının cinayət qanunvericiliyi. Monoqrafiya. Bakı: NAT Co MMC, 2012, 321 s.
4. Mirzəyev A.A, Kərimov Ş.M. Korrupsiya cinayətlərinin tövsufində mövcud olan bəzi problemlər // Elmi Məcmuələr. Cild 21, №1, 2019, s.96-102
5. Голик Ю.В., Карасев В.И. Коррупция как механизм социальной деградации. СПб: Издательство Р.Асланова «Юридический центр Пресс», 2005. 329 с.
6. Карепова С. Г, Некрасов С. В, Пинчук А. Н. Великобритания: опыт борьбы с корр-упцией на законодательном уровне // Наука. Культура. Общество. 2019. Том. 25. № 2.с.26-38.https://cyberleninka.ru/article/n/velikobritaniya-opyt-borby-s-korruptsieyna -zakonodatelnom-urovne
7. Кремянская Е. А. Организация борьбы с коррупцией в зарубежных стра нах. Опыт США и Великобритании // Право и управление. XXI век. 2013. № 3. с. 24–31.
8. Международное уголовное право: учебник /под ред. Х.С. Исламходжаева. Т.ТГЮР, 2016, 246 с.
9. Мирзоева Д.Х. Правовые основы борьбы с коррупцией в США / Д.Х. Мирзоева, Свечников Н.И //Право, история, педагогика и современность: сбор. ст. Междуна-родно научно-практической конференции. Пенза: Пензенский государственный аг-рарный университет, 2020. с. 85-90.
10. Трофимов Е. В. Закон США о зарубежной коррупционной практике 1977 г. и меж-дународно-правовые инициативы по глобальному противодействию коррупции: проблемы криминализации и администрирования сомнительных операций транс-национальных корпораций в 1970-х гг.// Право и политика, №-2, 2019, с. 30-48
11. ФБР США усиливает борьбу с международной коррупцией и создает специальные подразделения: https://tass.ru/mezhdunarodnaya-panorama/1698274
12. Anti-Corruption Forum, http://www.anticorruptionforum.org.uk/acf/pages/acf.php
13. Alford R. P. A Broken Windows Theory of International Corruption / Roger P. Alford // Ohio State Law Journal. Volume. 73, № 5. 2013, p. 1253-1282.
14. Bribery Act 2010, http://www.legislation.gov.uk/ukpga/2010/23/contents
15. Criminal Finances Act 2017: https://www.legislation.gov.uk/ukpga/2017/22/-pdfs-/uk-pga_20170022_en.pdf
16. Economic Crime and Corporate Transparency Act 2023: https://www.legislation.-gov.uk-/ukpga/2023/56
17. Foreign Corrupt Practices Act of 1977: https://www.govinfo.gov/content/pkg/COMPS-9569/pdf/COMPS-9569.pdf
18. Hardouin P. Banks governance and public-private partnership in preventing and confron-ting organized crime, corruption and terrorism financing //Journal of financial crime, Volume. 16 Iss: 3, 2009, p. 199-209
19. Magna Carta 1297, 25 Edw. 1, cc 1, 9, 29, c. https://www.legislation.gov.uk/aep/-Edw1-cc1929/25/9
20. Ministerial Code, https://www.gov.uk/government/publications/ministerial-code
21. OECD, Directorate for Financial and Enterprise Affairs, United Kingdom: Phase 2 – Report on the Application of the Convention on Combating Bribery of Foreign Public Officials in International Business Transactions and the 1997 Recommendation on Com-bating Bribery in International Business Transactions para. 248 (Mar. 17, 2005), http: //www.oecd.org/dataoecd/62/32/34599062.pdf
22. Public Bodies Corrupt Practices Act 1889, http://www.legislation.gov.uk/ukpga/Vict/52-53/69
23. Post-separation Employment of Ministers, http://www.aph.gov.au/binaries /library/ pubs / rn/2001-02/02rn40.pdf
24. Representation of the People Act 1983: https://www.lbhf.gov.uk-/sites/default/-files/-sec-tion_attachments/representation_of_the_people_act_1983.pdf
25. The United Nations Convention against Corruption as a way of life. Edited by Nikos Passas and Dimitri Vlassis. Milan. ISPAC, 2007. 268 p.
26. The United Kingdom Bribery Act 2010 – Anti-Corruption Legislation with Significant Jurisdictional Reach, http://www.loc.gov/law/help/uk-bribery-act.php
27. The Dodd-Frank Wall Street Reform and Consumer Protection Act: Background and Summary: https://www.congress.gov/crs-product/R41350

28. United States Office of Government Ethics: https://www.linkedin.-com/-company/office-of-government-ethics
29. Willborn E. Extraterritorial Enforcement and Prosecutorial Discretion in the FCPA: A Call for International Prosecutorial Factors / Emily Willborn // Minnesota Journal of International Law. Volume. 22, № 2. 2013, p. 422-452.

Мурсалов Орудж Гиняз оглу,
докторант кафедры международного публичного права
Бакинского государственного университета

ПРАВОВЫЕ ОСНОВЫ И МЕХАНИЗМЫ БОРЬБЫ С КОРРУПЦИЕЙ В ВЕЛИКОБРИТАНИИ И СОЕДИНЕННЫХ ШТАТАХ АМЕРИКИ

РЕЗЮМЕ

Создание и развитие правовых основ и механизмов контроля в борьбе с коррупци-ей имеет древние исторические корни. В настоящее время коррупция рассматривается как нарушение закона, представляющее серьезную угрозу экономическим, политическим и социальным основам общества, демократическим институтам, законности и верховенству права, правам человека и межгосударственному сотрудничеству. Коррупция, со всеми её негативными последствиями, развращает деловую и управленческую среду, создаёт осно-ву для серьёзных социальных различий между людьми и способствует деградации общес-тва в целом.

Основой для достижения эффективных результатов в борьбе с коррупцией является взаимное применение и гармонизация национального и международного законодатель-ства. С этой целью был проведен всесторонний анализ и исследование антикоррупцион-ного законодательства и механизмов контроля в развитых странах, таких как Велико-британия и Соединенные Штаты Америки, и в результате были разработаны предложения, которые могли бы способствовать улучшению практики борьбы с коррупцией в Азер-байджанской Республике.

Mursalov Oruj Ginyaz,
PhD student, Department of International public law,
Baku State University

LEGAL FRAMEWORK AND MECHANISMS FOR COMBATING CORRUPTION IN THE UNITED KINGDOM AND THE UNITED STATES

SUMMARY

The creation and development of legal frameworks and control mechanisms in the fight against corruption has ancient historical roots. Currently, corruption is considered a violation of the law that poses a serious threat to the economic, political and social foundations of society, democratic institutions, legality and the rule of law, human rights and interstate cooperation. Corruption, with all its negative consequences, corrupts the business and management environment, creates the basis for serious social differences between people and contributes to the degradation of society as a whole.

The basis for achieving effective results in the fight against corruption is the mutual application and harmonization of national and international legislation. To this end, the author analyzed anti-corruption legislation and control mechanisms in developed countries such as the United Kingdom and the United States of America and proposed measures that could contribute to improving anti-corruption practices in the Republic of Azerbaijan.

Redaksiyaya daxilolma tarixi: 30.07. 2026
Təkrar işlənməyə göndərilmə tarixi: 11.08. 2026
Çapa qəbul olunma tarixi: 23.08.2026